# İnformasiya komminukasiya texnologiyalarının tarixin tədrisində rolu

**Vüqar Rizvan oğlu Əliyev**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** ali.babayev.1968@mail.ru

**Rəyçilər:** t.ü.f.d., dos. P. Səfərov,
p.ü.f.d. T. İsayeva

**Açar sözlər:** informasiya texnologiyası, təhsil, tarix tədrisi
**Ключевые слова:** информационные технологии, образование, преподавание истории
**Key words:** information tecnology, education, history teaching

21-ci əsrdə orta məktəblərdə tarix fənninin tədrisi zamanı İnformasiya və Kommunikasiya Texnologiyalarının rolundan istifadə etmək günün aktual məsələlərindən biridir. İnkişaf etmiş ölkələrin (İEÖ) əksəriyyətində tədrisdə informasiya və kommunikasiya texnologiyaları hələ inkişaf mərhələsindədir. Bəzi inkişaf etməkdə olan ölkələrdə isə tədris zamanı İKT-dən istifadə hələ başlanğıc mərhələdədir. İKT müasir tədris və təlim vasitəsi kimi şagirdlərə müəyyən bilikləri aşılamaq üçün effektiv vasitə hesab edilir.

Hazırda informasiya kommunikasiya texnologiyaları (İKT) insan həyatının bütün sahələrini əhatə edir. İKT-nin tibb, turizm, sənaye, nəqliyyat, logistika, biznes, hüquq, bank, təhsil müəssisələri, mühəndislik və memarlıq kimi müxtəlif sahələrə təsiri son onilliklərdə olduqca böyükdür. İnformasiya və kommunikasiya texnologiyaları (İKT) insan fəaliyyətinin bir çox aspektlərini dəyişdirən bir qüvvədir. Lakin təhsil sektoruna diqqət yetirdikdə, İKT-nin digər sahələrə nisbətən Post Sovet məkanında, o cümlədən ölkəmizdə digər sahələrə nisbətən təhsilə təsirinin daha az olduğunu müşahidə edə bilərik. Azərbaycanda orta təhsil verən müəssisələr, eləcə də ali məktəblərdə İKT-nin tətbiqinin başlanğıc mərhələsindədir. Buna məqsədlə də son zamanlar ölkəmizdə məqsədyönlü işlər aparılır, orta və ali məktəblərimiz müasir komputer texnologiyaları ilə təchiz edilir və dövlət buna böyük qayğı göstərir.

1996-cı ildən başlayaraq bir sıra alimlər İKT-nin təhsildə və digər sahələrdə effektivliyini və əks təsirini araşdırmışdılar. İKT təhsildə mövcud olmağa başlasa da, təsirləri digər sahələrdə olduğu kimi əhəmiyyətli deyildi. Lakin dünya rəqəmsal mediaya və məlumata doğru sürətlə irəliləyir, İKT-nin təhsildə rolu daha da əhəmiyyətli hal alır. Günümüzdə Covid-19 dünyanı cənginə almış və bir sıra problemlər meydana çıxmışdır. Lakin dünya ölkələrində İKT-yə ehtiyac daha da artmış və bir çox təhsil müəssisələri online tədris sisteminə keçirilmişdir. Online təhsilin üstünlükləri olsa da birbaşa təhsilin effektini vermir. Hal-hazırda ölkəmizdə bir sıra ali məktəblərdə, eləcə də ümumtəhsil məktəblərində online dərslərin səmərəliliyini artırmaq üçün bir sıra tədbirlər görülür. Tədris mərkəzlərində xüsusi kompyuter otaqları və auditoriyalar ayrılır ki, müəllim heyəti şagird və tələbələrə rahatlıqla online dərs keçə bilsin.

İKT cəmiyyətə çox böyük fayda verir. İKT və təhsil yalnız şagirdlərin müasir informasiya əsri üçün bilik və bacarıqlara yiyələnməsi üçün deyil, bununla yanaşı ölkənin iqtisadi və siyasi statusunu möhkəmləndirmək üçün vacib aspektdir. XXI əsrdə təhsildə İKT-nin istifadəsində dörd vacib məsələnin olduğunu iddia edilir. Bunlar effektivlik, maliyyət, kapital və davamlılıqdır. Son illərdə həm rəsmi, həm də qeyri-rəsmi şəraitdə bütün səviyyələrdə təhsilin səmə-

rəliliyini və effektivliyini artırmaq üçün İKT-dən, xüsusilə də kompüterdən və internetdən ən yaxşı şəkildə necə istifadə olunmasına marağın artdığı görünür.

Müasir mühit səriştəlilik və performansı təşviq edən tədris proqramlarına üstünlük verir. İnkişaf etmiş ölkələrdə tədris proqramı bacarıqları vurğulamağa üstülük verir və məlumatın nə olmasında çox, məlumatdan necə istifadə ediləcəyi düşünülür. Bacarıqlara və performansa əsaslanan tədris planlarına keçidlər yeni inkişaf edən tədris texnologiyaları tərəfindən dəstəklənir və təşviq olunur. Bu tip tədris planları bunları tələb edir:

— müxtəlif məlumat mənbələrinə giriş;
— məlumatların müxtəlif formalarına və növlərinə giriş;
— məlumat və sorğu əldə etməyə əsaslanan şagird mərkəzli təlim parametrləri;
— problem yönümlü və sorğu əsaslı fəaliyyətlərə yönəlmiş öyrənmə mühitləri;
— orijinal parametrlər və nümunələr [1].

Uzun illərdir ki, bacarıq və nəticəyə əsaslanan tədris proqramını qəbul etmək istəyən müəllimlər öz mənbələri və alətləri ilə məhdudlaşırlar, lakin müasir İKT-nin çoxalması və yayılması ilə keçmişdəki məhdudiyyətlər və maneələr artıq aradan qaldırıla bilər. Şagirdlər və müəllimlər birbaşa ünsiyyət formalarına və paylaşılan mənbələrə çıxış əldə etdikcə bu keyfiyyətli öyrənmə parametrlərini dəstəkləyir.

Şagirdlərin tarixi öyrənməsində İKT-nin rolu vacibdir. İKT tarix fənninin öyrənilməsi zamanı tarixi hadisələrin şərhində, şəxsiyyətlərin fəaliyyətlərinin öyrənilməsində, ölkələr haqqında məlumatların toplanılmasında, onların tarixi, mədəniyyəti, iqtisadiyyatı, xarici siyasəti haqqında məlumatların toplanılması üçün şagirdlərə kömək olur. Tarix dərslərində İKT-nin nailiyyətlərindən istifadə üçün nə tələb olunur? Orta məktəblərdə, eləcə də ali məktəblərdə xüsusi auditoriyaların təşkil edilməsi, onların müasir texnoloji vəsaitlərlə təchiz olunması, müasir ağıllı lövhələrin quraşdırılması, şagirdlərə və tələbələrə müasir texnologiyaların istifadəsinin öyrədilməsi vacib hesab edilir.

Tarix dərslərində texnologiyalardan istifadənin müsbət tərəfləri, yüksək motivasiya səviyyəsi, təhsil intensivliyi, təhsilin fərdiləşdirilməsi, qiymətləndirmənin obyektivliyi, mövzu ilə əlaqədar araşdırmalarda müstəqillik dərəcəsinin gücləndirilməsidir. İnformasiya texnologiyalarının meydana gəlməsindəki problemlər isə, texnologiyanın məktəblilərin psixoloji və fiziki sağlamlığına mənfi təsiridir [2].

XXI əsrdə tarixin tədrisi və öyrənilməsində İKT-nin digər rolu informasiya savadlılığına ehtiyacdır. Məzunların müvafiq səviyyədə məlumat savadını nümayiş etdirmələrini təmin etmək üçün təhsil müəssisələrinə ehtiyac var, "hansısa problemi müəyyənləşdirmək və qarşılıqlı əlaqə qurmaq üçün müvafiq məlumatları tapmaq, qiymətləndirə, ya da ortaya çıxan problemi həll etmək üçün". Bu cür inkişafları təşviq etmək məqsədi, məzunların yalnız bir neçə fənn üzrə bilik və bacarıq nümayiş etdirməsi deyil, eyni zamanda ortaq xüsusiyyətlər və ortaq bacarıqlara yiyələnmələrini təmin etmək üçün təhsil müəssisələri arasında həyata keçirilən birgə addımlardan irəli gəlir.

Ənənəvi ümumi bacarıqlara problemlərin formal olaraq həlli, səmərəli ünsiyyət qurma, nəticələrin müzakirəsi, vaxtın idarə olunması, layihələrin idarə edilməsi və əməkdaşlıq, eləcə də komanda işi bacarıqları daxildir. Gündəlik həyatımızda istifadəsi artan İKT savadlılığı da daxil olmaqla son illərdə ümumi bacarıqların spektrini genişləndirmişdir.

Geniş məzmunlu və keyfiyyətli tədris kontentinin mövcud olması, rəqəmsal interaktiv təhsil resurlarından dərs zamanı istifadə olunması təhsilin keyfiyyətini formalaşdıran, bununla yanaşı tədrisin inkişafına birbaşa öz təsirini göstərən zəruri və vacib amillərdəndir. Son bir neçə il ərzində respublikamızın təhsil ocaqlarının əksəriyyətində yeni nəsl interaktiv avadanlaq-

lar (elektron, interaktiv, ağıllı lövhələr) ilə təchiz edilmişdir. Müəllimlərimizdən həmin avadanlıqlar vasitəsilə sərbəst şəkildə işləmək və eyni zamanda avadanlıqların xüsusi proqram təminatından istifadə olunaraq rəqəmsal interaktiv təhsil resurslarını hazırlamaq və dərslərdə aktiv tədbiq etmə bacarıqları tələb edilir [4].

Tarix fənninin tədrisi zamanı müasir dərs imkanları genişdir. Həmin imkanlardan mükəmməl şəkildə yararlanaraq tətbiq edə bilmək üçün müəllim lazımı şəkildə fənnin tədris olunma metodikasına, dərsin quruluş şəklinə, mərhələlərinin doğru və tam əks olunmasına diqqət göstərməlidir. Bu vacib məsələlər müəllimlərin hazırladığı dərs resurslarında da əksini tapmalıdır.

Məlum olduğu kimi, motivasiya müasir dərs prosesinin mühüm mərhələlərindən hesab edilir. Motivasiya mərhələsində bir çox hallarda dərsin mərhələlərinin pozulması müşahidə edilir.

İnformasiya və kommunikasiya texnologiyaları məlumat ötürmə sxemini və tədris metodlarını dəyişdirdikləri üçün şagird və tələbələrin tədris və təlim prosesinə aktiv təsir göstərir. İnformasiya texnologiyaları kompüter və telekomunikasiyanın, həmçinin ixtisaslaşdırılmış avadanlıqların, proqram təminatı və aparatların, məlumat emalı sistemlərinin, yeni tədris və məlumat saxlama vasitələrinin yaradılması ilə əlaqələndirilir:

— elektron dərsliklər və multimedia;

— elektron kitabxanalar və arxivlər, qlobal və yerli təhsil şəbəkələri;

— məlumat və istinad sistemləri.

Alimlər İKT-dən tarix tədrisində istifadəsinin aşağıdakı üstünlüklərini vurğulayırlar:

— şagirdlərin və tələbələrin işi daha fərdi olur, bunun sayəsində bilik daha yaxşı əldə edilir;

— şagirdlər getdikcə daha çox müstəqil işləyirlər;

— internetdən istifadə zamanı məlumat axınlarının həcmi artdıqca sinifdə şagirdlərin yerinə yetirdiyi tapşırıqların həcmi kəskin şəkildə artır;

— tədris üslubları şagirdlər üçün daha fərqli və maraqlı olduqda motivasiya və idrak fəaliyyəti artır.

Müəllim, sinif uşaqları üçün xüsusilə vacib olan dərsin strukturuna oyun anlarını daxil edə bilər, çünki məlumatlar oyunda daha yaxşı xatırlanır.

İnformasiya texnologiyaları müəllimə bir sıra yeni imkanlar verir, bunun sayəsində o, tələbə ilə öyrənmə prosesindən həzz ala bilər. Tələbələr üçün ən son texnologiyalar öyrənilən mövzunun dərinliyini vurğulayaraq inanılmaz və rəngarəng bir dünyaya qərq olmaq üçün misilsiz bir fürsət təqdim edir. Ən son informasiya texnologiyaları ilə təmin olunmuş sinif otaqları, şagirdlərin emosional reaksiyasına səbəb olur ki, bu da öyrənilən materialın keyfiyyətcə mənimsənilməsi üçün vacibdir.

Təhsil prosesini dəstəkləyən informasiya texnologiyaları sahəsində beynəlxalq əməkdaşlıq təhsil xidmətlərinin keyfiyyətinin yüksəldilməsində aparıcı rol oynayır. İnformasiya və kommunikasiya texnologiyaları dünyanın informasiya axınları ilə qarşılıqlı əlaqəni asanlaşdırır. Son zamanlar ölkəmizdə tədris prosesində informasiya və kommunikasiya texnologiyaları xidməti 38%, informasiya və kommunikasiya texnologiyaları avadanlığı 33%, proqram təminatı 10%, rabitə texnologiyası 13% artmışdır. Təhsildə İKT-dən istifadə mütəxəssis hazırlığı xərclərini xeyli azaltmağa imkan verir. Yeni informasiya texnologiyaları şagirdin özünü tam ifadə etməsi üçün əla şərait yaradır. Kompüter proqramlarının istifadəsi inteqrasiya olunmuş texnoloji elementlərin istifadəsini sürətləndirməyə və asanlaşdırmağa kömək etməkdədir.

İnformasiya kompyuter texnologiyalarının tədrisdə istifadə olunan amillərindən biri də

distant təhsildir. Xüsusilə də ölkəmizdə baş verən ikinci Qarabağ müharibəsi göstərdi ki müharibə olan bölgələrdə əhalinin təhlükəsizliyini təmin etmək üçün onların sığınacaqlarda və evlərin zirzəmilərində gizlənmələri məktəblərin normal şəkildə fəaliyyət göstərməsinə öz təsirini göstərib. Bu isə təhsil prosesində uzunmüddətli fasilələrin yaranmaması üçün distant təhsili bir daha gündəmə gətirmişdir. Distant təhsil də müasir informasiya texnologiyalarının tərkib hissəsidir. Distant təhsilin uğurlu alınmasının birinci amili ölkənin bütün bölgələrinin internet şəbəkəsi ilə mütəşəkkil şəkildə əhatə olunmasıdır. Bu da hər hansı bir fövqəladə vəziyyət yaranan zaman - müharibələr, təbiət hadisələri və s. hallarda distant təhsilin aktuallığını bir daha önə çıxarır. İkinci Qarabağ müharibəsi onu göstərdi ki infotmasiya və kommunikasiya texnologiyalarının tərkib hissəsi olan distant təhsilin cəbhədə və cəbhəyə yaxın ərazilərdə şagirdlərin və digər təhsil müəssisələrinin fasiləsiz təhsilə cəlb etməsində əsas rol oynayır. Ölkəmizdə və dünyada yayılmış Covid-19 virusu da təhsildə geriləmələrə səbəb oldu.

**Məqalənin aktuallığı.** Ölkələrdəki təhsil islahatları müasir bir məktəbin tədris prosesinə informasiya və kommunikasiya texnologiyalarının tətbiqi ilə sıx bağlıdır. Cəmiyyətin formalaşması həyatın bütün sahələrində yeni informasiya texnologiyalarının tətbiq olunmasının zəruriliyini müəyyənləşdirir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə informasiya komminukasiya texnologiyalarının tarixin tədrisində rolu və əhəmiyyəti öz əksini tapmış, müasir metodları göstərilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi**. İKT gündəlik həyatımızda əhəmiyyətli yerə malik olmaqla yanaşı tarix təlimində də xüsusi yerə malikdir. Hazırda vahid informasiya təhsil məkanının (İTM) yaradılması günümüzdə qarşıya qoyulan əsas məsələlərdən biridir. İTM-in başlıca vəzifəsi ibtidai sinifdən başlayaraq, daha yuxarı siniflərə qədər hər bir istifadəçi üçün müəyyən tədris üsullarından sərbəst şəkildə yararlana bilmək imkanı yaradır.

## Ədəbiyyat


1. Tarih öğretiminde bilgi ve iletişim teknolojilerinin rolü Türkiye İbrahim Hakkı Öztürk, 2016.
2. The role of ICT in the teaching and learning of history Adesote, S.A and Fatoki O.R.
3. http://web.deu.edu.tr/
4. Tam Orta Məktəbdə Tarixin Fəal/İnteraktiv Təlim Meodikası. Bakı, 2011.
5. Румянцев В.Б. Всемирная истории с использованием Интернет. М.: Владос, 2002, 32 с


**В.Р. Алиев**

## Роль информационных и коммуникационных технологий в преподавании истории

## Резюме

Использование современных информационных технологий - одно из важных условий дальнейшего развития эффективных подходов к обучению и совершенствования учебного процесса. Информационные технологии играют в этом процессе особую роль. Таким образом, их приложение повышает интерес студентов к обучению, сокращает время, затрачиваемое на обучение, а интерактивность и визуализация стимулируют

лучшее понимание, понимание и восприятие исторического материала обучения. Коммуникация школьников с IT - важный аспект решения проблемы информатизации и повышения квалификации в современной школе.

**V.R. Aliyev**

## The role of information and communication technologies in the teaching of history

## Summary

The use of modern information technology is one of the important conditions for the further development of effective approaches to training and the improvement of the learning process. IT plays a special role in this process. Thus, their application increases students' interest in learning, reduces the time spent on learning, and interactivity and visualization stimulate a better understanding, comprehension and perception of the historical material of learning. Communication of students with IT is an important aspect of solving the problem of informatization and professional development in a modern school.

**Redaksiyaya daxil olub:** 27.11.2020